**Bərdədə yerləşən bazarda keçirilmiş yoxlamaya dair məlumat**

**(14 mart 2025)**

Bərdə rayonu, Güloğlular kəndində fəaliyyət göstərən, “Ticarət Mərkəzi” MMC-yə məxsus bazarda AQTA əməkdaşları tərəfindən yoxlama keçirilib.
Baxış zamanı bazarda baytarlıq sənədləri olmayan süd, balıq məhsullarının və müşayiətedici sənədləri olmayan tərəvəz məhsullarının satışa çıxarıldığı, qida məhsullarının saxlanma şəraitinə əməl edilmədiyi, eləcə də üzərində etiket məlumatlarının olmadığı, işçilərin ilkin və dövri tibbi müayinədən keçmədiyi, gigiyena qaydalarına riayət etmədiyi və digər nöqsanlar aşkarlanıb.
Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib.